**KREDİT MÜQAVİLƏSİNİN ŞƏRTLƏRİ VƏ MÜDDƏALARI**

VÖEN: 1405686861, hüquqi ünvanı AZ1025, Azərbaycan Respublikası, Bakı, Xətai rayonu, Xocalı pr., ev 37 olan **"SF Azerbaijan" Bank Olmayan Kredit Təşkilatı MMC** (bundan sonra - "**BOKT"**) kredit məbləğinin verilməsi üçün aşağıdakı qaydaları nəzərdə tutur.

Kredit məbləği almaq üçün BOKT-un veb-saytı vasitəsilə müraciət edən şəxslər aşağıdakı şərtlərə riayət etməlidirlər:

1. Kredit müqaviləsi (bundan sonra - "Müqavilə") bağlandığı anda Borcalan kredit Müqaviləsinin şərtləri, kredit müqaviləsinə əlavə edilmiş şərtlər və müddəalar, BOKT-un veb-saytında yerləşdirilmiş şəxsi məlumatların emal edilməsi üzrə siyasəti ilə tanış olmalıdır.
2. Borcalan qeyd olunan sənədlərlə tanış olduğunu və həmin sənədlərin müddəalarına əməl edəcəyini təsdiq edərək, BOKT-un veb-saytı vasitəsilə kredit məbləğini almaq üçün müraciət etdiyi zaman müvafiq xanaları doldurur.
3. Suallar və ya aydın olmayan məqamlar yaranarsa, Borcalan Müqavilə bağlanmazdan əvvəl dərhal BOKT ilə əlaqə saxlamalıdır.
4. Borcalanın Müqavilə qüvvədə olduğu bütün dövr ərzində suallar və ya aydın olmayan məqamlarla bağlı BOKT-a müraciət etmək hüququ vardır.
5. Müqavilə bağlamaq, habelə kredit məbləğini almaq məqsədilə sorğu göndərmək üçün Borcalan uyğun olmalıdır və Borcalan əmin edir ki, Müqavilənin qüvvədə olacağı bütün dövr ərzində o, aşağıdakı meyarlara cavab verəcəkdir:
    - Borcalan – fiziki şəxsdir;
    - Borcalanın yaşı 19-dan 65-ə qədərdir;
    - Borcalanın bəyan edilmiş daimi yaşayış yeri Azərbaycan Respublikasında yerləşir və Borcalan vergitutma məqsədləri üçün rezident hesab olunur;
    - Borcalan hər hansı kredit təşkilatında bank hesabı/poçt hesabı açmış, Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş ödəniş kartı və ya elektron pul kisəsi almışdır və əgər onun içində pul vəsaiti olarsa, Borcalanın həmin vəsait üzərində sərbəst sərəncam vermək hüququ vardır;
    - Borcalan həqiqi benefisiardır (yəni Borcalan yalnız öz adından, öz mənfəəti və maraqları üçün çıxış edir);
    - Müqavilə bağlanan anda Borcalan spirtli içkilər, narkotik, psixotrop və ya zəhərli maddələrin təsiri altında deyildir;
    - Borcalan sabit gəlirə malikdir,
    - Borcalan siyasi əhəmiyyətli şəxs, siyasi əhəmiyyətli şəxsin ailə üzvü və ya yaxın adamı deyil, beynəlxalq və daxili sanksiyalara məruz qalmır və terrorçuların siyahısına daxil edilməmişdir.
6. Müqavilə bağlanan anda və kredit məbləğinin verilməsi üçün müraciət edərkən Borcalan fəaliyyət qabiliyyətlidir və spirtli içkilər, narkotik, psixotrop və ya zəhərli maddələrin təsiri altında deyildir.
7. Müqavilə tərəflər Müqavilənin bütün şərtləri və ödəniləcək kredit məbləğinin miqdarı barədə Müqavilədə müəyyən edilmiş qaydada razılığa gəldikdən sonra qüvvəyə minəcəkdir, və tərəflər tərəfindən imzalandığı andan.
8. BOKT-un veb-saytında qeydiyyatdan keçərkən və kredit məbləğini almaq üçün müraciət etdiyi zaman Borcalan təsdiq edir ki:

- Borcalanın üçüncü şəxslər qarşısında vaxtı ötmüş borc öhdəliyi yoxdur, Borcalanın borc tarixçəsi məlumat bazalarında və ya kredit tarixçəsi yaradılması üçün məlumat bazalarında, o cümlədən kredit informasiya bürolarında mövcud borclu kimi qeydiyyatı yoxdur, Borcalanın borcunu ödəmə qabiliyyətinə mənfi təsir göstərəcək heç bir hal mövcud deyil və onun gəlir və xərcləri Müqavilədən irəli gələn öhdəliklərin yerinə yetirilməsi üçün uyğundur.
- Borcalanın BOKT-un veb-saytında və Borcalanın Profilində qeydiyyatı zamanı, habelə Müqavilənin qüvvədə olduğu hər hansı bir anda təqdim etdiyi məlumatlar həqiqidir. Borcalan üçüncü bir şəxs barədə məlumat verə bilməz (məsələn, üçüncü şəxsin əlaqə məlumatları, bank hesabı və s.). Borcalan yanlış məlumat verməyin hüquqi nəticələrini dərk edir.

9. Müqavilə bağlamazdan əvvəl BOKT:
    - Borcalanın BOKT-un xidmətlərindən anonim şəkildə və ya saxta məlumatlar yolu ilə istifadə etməməsi üçün Borcalanın eyniləşdirilməsini (yəni eyniləşdirmə məlumatlarının əldə edilməsi və yoxlanılması) həyata keçirir;
    - Borcalanın BOKT-un veb-saytında qeydiyyatı zamanı təqdim etdiyi məlumatları qiymətləndirir və Borcalanın ödəmə qabiliyyətini və ya kredit məbləğini geri qaytarmaq qabiliyyətini yoxlayır. Borcalanın ödəmə qabiliyyətini qiymətləndirmək üçün BOKT, Borcalanın maliyyə vəziyyətini, məsələn, Borcalanın gəlirləri, kredit tarixçəsi, mövcud kredit öhdəlikləri və buna bənzər məlumatları tətbiq olunan hüquqi aktlara və BOKT-un kredit siyasətinə uyğun formada əldə edərək yoxlayır. BOKT Borcalanın ödəmə qabiliyyətini qiymətləndirmək üçün zəruri olan bütün sənədli sübutları əldə etmək hüququna malikdir;
    - Borcalan müraciət edərkən razılıq verir ki, BOKT bütün zəruri məlumat və sənədləri öz məlumat bazasından, habelə üçüncü şəxslərin məlumat bazalarından (bu halda Borcalan başqa razılıq sənədi imzalayır) əldə edə bilər və ya Borcalan lazımi sənədləri özü müstəqil şəkildə təqdim edir. Borcalanın kredit məbləğini ödəmək qabiliyyəti Müqavilənin qüvvədə olduğu bütün dövr ərzində təkrar yoxlana və yenilənə bilər.
10. Borcalanın eyniləşdirilməsi oflayn rejimdə, Borcalana telefon zəngi vasitəsilə xüsusi suallar yönləndirərək, “ASAN Finans” dövlət sistemi vasitəsilə telefon nömrəsini yoxlayaraq, SMS kod göndərərək və biometrik məlumatlar kimi texnoloji həllərdən istifadə etməklə həyata keçirilir.
11. BOKT əlavə izah vermədən hər zaman (o cümlədən qeydiyyat zamanı, Müqavilə bağlamazdan əvvəl, kredit məbləğini verməzdən əvvəl, Müqavilənin qüvvədə olduğu dövr müddətində və s.) aşağıdakıları etmək hüququna sahibdir:
    - Borcalanın eyniləşdirmə prosesində şəxsən iştirakı ilə eyniləşdirmə aparmaq;
    - Borcalandan qiyabi formada həyata keçirilmiş eyniləşdirməni təkrarlamağı tələb etmək və ya
    - tətbiq olunan qanunvericiliyə uyğun olaraq digər növ eyniləşdirmə prosesini həyata keçirmək.
12. Çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsinin qarşısının alınmasını, habelə dələduzluq hallarının müəyyən edilməsi və qarşısının alınmasını tənzimləyən normativ aktlara uyğun olaraq, BOKT Borcalanın eyniləşdirilməsi ilə eyni zamanda onu araşdırır (potensial müştəri kimi).

13. BOKT Borcalanın yuxarıda qeyd olunan eyniləşdirilməsini həyata keçirmək və onu araşdırmaq üçün məlumat tələb etmək hüququna sahibdir, lakin Borcalan BOKT-un yoxlama aparmağına imkan verən bütün zəruri məlumat və sənədləri təqdim etməlidir. BOKT bu bənddə qeyd olunan hüquqlarını Borcalanla əməkdaşlıq etdiyi hər hansı bir dövrdə (yəni Borcalan qeydiyyatdan keçdikdən sonra, Müqavilə bağlananadək və Müqavilənin qüvvədə olduğu müddət ərzində) icra edə bilər.
14. Kredit məbləğini almaq üçün müraciət edərkən Borcalan özünün siyasi əhəmiyyətli şəxs, siyasi əhəmiyyətli şəxsin ailə üzvü və ya siyasi əhəmiyyətli şəxslə sıx əlaqələri olan bir şəxs olub-olmadığını qeyd etməlidir. Müqavilənin qüvvədə olduğu müddət ərzində Borcalan siyasi əhəmiyyətli şəxs, siyasi əhəmiyyətli şəxsin ailə üzvü və ya siyasi əhəmiyyətli şəxslə sıx əlaqələri olan şəxs statusunu itirər və ya qazanarsa, Borcalan qeyd olunan statusun itirdiyi və ya qazandığı tarixdən sonrakı 3 (üç) iş günündən gec olmayaraq bu barədə BOKT-a yazılı şəkildə məlumat verməlidir.
15. Müqavilə qüvvədə olduğu müddətdə Borcalan tərəfindən təqdim edilən məlumatlarla bağlı dəyişikliklər baş verərsə, Borcalan dərhal (lakin müvafiq dəyişikliklərin baş verdiyi gündən sonrakı üç iş günündən gec olmayaraq) öz Profilinə yenilənmiş məlumatları daxil edərək, həmin dəyişiklikləri qeyd etməlidir. Borcalanın Profilində dəyişikliklərin qeydə alınması mümkün olmadıqda, Borcalan qeyd olunan müddət ərzinə bu barədə BOKT-a yazılı məlumat verməlidir. Əgər Borcalan öz hesabının dəyişməsi barədə BOKT-a yuxarıdakı cümlədə qeyd olunan qaydada məlumat verməzsə, BOKT kredit məbləğinin Borcalanın səhv hesabına göndərilməsinə və ya kredit məbləğinin verilməməsinə görə məsuliyyət daşımır.
16. BOKT Borcalanın təqdim etdiyi və ya Borcalan ilə əməkdaşlıq müddətində ixtiyarında olan əlaqə məlumatlarından istifadə edərək Borcalan ilə telefon, elektron poçt və/və ya poçt vasitəsilə əlaqə qura bilər. BOKT onunla Borcalan arasındakı mümkün, mövcud və/və ya keçmiş hüquqi münasibətlərlə əlaqəli bütün məsələlər (o cümlədən qeydiyyat, eyniləşdirmə, araşdırma, Müqavilənin bağlanması və icrası, ödənişlərin icrası, borcun ödənilməsi və s. məsələlərin də daxil olduğu, lakin yalnız sadalananlarla məhdudlaşmayan) barədə Borcalan ilə əlaqə saxlamaq hüququna malikdir.